## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Rzayev Rəsul İbrahim oğlu 19 may 1910-cu ildə Göyçay şəhərində doğulmuşdur.***

| | |
|---|---|
| **1910** | Atası vəfat etdiyindən böyük qardaşının himayəsində yaşamışdır. |
| **1924** | ÜİLKGİ sıralarına daxil olur;<br><br>Göyçay şəhər kitabxanasında müdir vəzifəsində işləyir. |
| **1925** | Gəncə Sənaye və Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. |
| **1926-1927** | Tbilisidə Zaqafqaziya Kommunist universitetinin kooperasiya şöbəsində təhsil almışdır. |
| **1927** | Tiflisdə Gürcüstan Proletar Yazıçılar Assosiasiyasının türk seksiyasının "Qığılcım" almanaxında ilk şeiri — "Bu gün" şeiri dərc olunmuşdur. |
| **1930** | Bakıya köçməsi onun yaradıcılığında dönüş yaradır. |
| **1931** | "Bolşevik yazı" şeiri "İnqilab və mədəniyyət" jurnalının 3–4 sayında dərc olunmuşdur. |
| **1931-1933** | Azərbaycan Elmi Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirir. |
| **1932** | “Çapey” adlı ilk kitabı çap olunur. |
| **1934** | Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. |
| **1934-1937** | Moskvada Kinematoqrafiya İnstitutunda təhsilini davam etdirmişdir. |
| **1935** | “Çinar” şeirini qələmə almışdır. |
| **1937** | Fevralın 11-də Rəsul Rza və Nigar Rəfibəyli ailə həyatı qurmuşdur. |
| **1937-1938** | Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi vəzifəsində çalışmışdır. |

| | |
|---|---|
| **1938** | Martın 18-də oğlu yazıçı, dramaturq, ssenarist və kinorejissoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü və sədri Anar dünyaya gəlmişdir;<br><br>“Şərəf nişanı” ordeninə layiq görülmüşdür;<br><br>Azərbaycan Dövlət Filarmoniyasının müdiri vəzifəsində işləmişdir;<br><br>"Çinar" kitabını yazmışdır. |
| **1938-1939** | Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri kimi fəaliyyət göstərmişdir. |
| **1941** | Şair bir qrup siyasi işçilərlə hərbi müxbir kimi Krıma getmiş, Azərbaycan diviziyasında hərbi müxbir vəzifəsində çalışmışdır. Cəbhə qəzeti "Döyüşən Krım"da işləməyə başlamışdır. |
| **1942-1943** | “Vətən”, “İntiqam! İntiqam...” şeir kitablarını, “Ölməz qəhrəmanlar”, “Qəzəb və məhəbbət” hekayə və oçerk toplularını, “Vəfa” pyesini yazmışdır. |
| **1942-1944** | Bakı kinostudiyasının müdiri vəzifəsində işləmişdir. |
| **1944-1946** | Kinematoqrafiya idarəsində rəis vəzifəsində çalışmışdır. |
| **1945** | Sovet-alman müharibəsinə qarşı şeirləri və hekayələri gün üzü gördü. |
| **1946** | “Gözəl dost” əsərini yazmışdır;<br><br>“Lenin” ordenini almışdır. |
| **1946-1949** | Azərbaycan SSR kinematoqrafiya naziri olmuşdur. |
| **1945** | Azərbaycan Ali Sovetinin deputatı, Azərbaycanın Əməkdar incəsənət xadimi olmuşdur. |
| **1951** | “Lenin” poemasına görə “Stalin mükafatı” laureatını almışdır. |
| **1955** | Çexoslovakiyaya səfər edir. |

| | |
|---|---|
| **1957** | Bir sıra Avropa ölkələrinə səfər etmiş və “Zəfər ilahəsi”, “Miloslu qız” kimi Fransa həyatına həsr edilmiş şeirlər yazmışdır. |
| **1959** | Misirə və İraq səfər edir. |
| **1960** | “Azərbaycanın SSR Xalq şairi” fəxri adına layiq görülmüşdür. |
| **1961** | Nəriman Nərimanova həsr etdiyi “Xalq həkimi” poemasını yazmışdır. |
| **1961-1964** | "Aşıq Yanıqlı bayatıları" silsiləsini qələmə almışdır. |
| **1962** | "Rənglər" silsiləsi ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında (№ 11) dərc olmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi. |
| **1964** | "Duyğular…düşüncələr" kitabı çap olunmuşdur. |
| **1965** | "Dözüm" kitabı nəşr edilmişdir;<br><br>“Azərbaycan Sovet Ensiklopediyasının nəşri haqqında” qərarla Rəsul Rza ensiklopediyanın baş redaktoru olmuşdur. |
| **1969** | “Ana səsi” kitabını yazmışdır;<br><br>Xalq şairi Rəsul Rzanın "Uzaq ellərin yaxın töhfələri" əsəri Bağdadda "Qardaşlıq" dərgisinin 6-cı sayında dərc olunmuşdur. |
| **1970** | “Lenin” ordenini almışdır. |
| **1971** | Yazıçı dostu Sabit Rəhmana həsr etdiyi "Xatirələr düzümü" poemasını yazmışdır. |
| **1972** | Gürcüstanda şeir bayramında iştirak edir. |
| **1974** | “Günəşdən gənclik istədim” kitabı çap olunmuşdur. |
| **1975** | “Min dörd yüz on səkkiz” poemasını yazmışdır. |
| **1977** | “Babək” poemasını yazmışdır. |

| | |
|---|---|
| **1980** | "Yaralı Kərkükün bugünkü xoyrat və maniləri" silsilə şeirlərini qələmə almışdır;<br><br>“Vətən dedim” şeirini yazmışdır;“Lenin” ordenini almışdır;<br><br>“Sosialist Əməyi Qəhrəmanı” adı almışdır. |
| **1981** | Aprelin 1-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1982** | “Bir həzin axşamda düşsəm yadına” kitabı çap olunmuşdur. |
| **1983** | Rəsul Rzanın qəbirüstü abidəsi açılır. Heykəltəraş Elmira Hüseynova, memar Firuz Məmmədov. |
| **1986** | Rüstəm Mustafayev adına muzeydə Rəsul Rzanın şəxsi kolleksiyasından tabloların “Rənglər aləmi” adlı sərgisi açılır. |
| **1992** | Bakıda M.F.Axundov adına Respublika Kitabxanasının fasadında Rəsul Rzanın heykəli ucaldılır (Heykəltəraş Xanlar Əhmədov). |
| **1993** | “Şanlı nəsillərin yadigarıyam” kitabı çap olunmuşdur;<br><br>Rəsul Rzanın Türkiyədə çıxan ilk kitabı Eldəniz Kurtulanın çevirməsiylə Kültür bakanlığı tərəfindən yayınlanmışdır. |
| **1997** | Fikrət Qocanın sədrliyi ilə Rəsul Rza fondu təşkil edilir və bu ildən Rəsul Rza mükafatlarını həmin fond verir. |
| **1998** | R.Rzanın seçmə şeirlərindən ibarət "Çinar ömrü" adlı ikinci kitabı Sabəhəddin Çağ tərəfindən orijinal şəkiliylə yayına hazırlanaraq Ötüken yayınları tərəfindən çap edilmişdir. |
| **2005** | Göyçay şəhərində Rəsul Rzanın ev-muzeyi fəaliyyətə başlamışdır. |
| **2010** | Xalq şairi Rəsul Rzanın "Gecənin susqun nəğməsi" adlı şeirlər kitabı Ankarada |

| | |
|---|---|
| | Türksoyun və Bengü yayın evinin birgə layihəsi çərçivəsində işıq üzü görüb;<br><br>Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Göyçay şəhərindəki Heydər Əliyev Mərkəzində Xalq şairi Rəsul Rzanın 100 illik yubileyinə həsr olunmuş "Deyilən söz yadigardır" mövzusunda V Ümumrespublika bədii qiraət müsabiqəsi keçirilmişdir;Xalq şairi Rəsul Rzanın “Rənglər” və “Rəngli yuxular” silsilələri Belqradda kitab şəklində dörd dildə nəşr edilmişdir;<br><br>Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tədris Teatrında Rəsul Rzanın 100 illiyinə həsr olunan “Üzü küləyə” adlı ədəbi-bədii mərasim keçirilmişdir.<br><br>Naxçıvan Dövlət Universitetində Rəsul Rzanın anadan olmasının 100 illiyi ilə bağlı elmi konfrans keçirilmişdir. |
| **2011** | Rəsul Rza haqqında Əhliman Qafarovun ssenarisi əsasında "...yaşıl atlas, ömürdən səhifələr" adlı bədi-sənədli film çəkilmişdir. |
| **2020** | Xalq şairi Rəsul Rzanın “Rənglər” silsiləsi Latviyada çap edilmişdir. “Petergailis” nəşriyyat evi tərəfindən nəfis tərtibatda çap edilmiş kitab Latviya Universitetinin mühazirəçisi, tarixçi Uldis Berzinş tərəfindən latış dilinə tərcümə edilib;<br><br>"Təmrin" dərgisinin Rəsul Rzanın 110 illik yubileyinə həsr olunmuş xüsusi sayı “Yeni Azərbaycan şeirinin bayraqdarı” başlığı ilə çap edilmişdir;<br><br>Aynur Səfərlinin Xalq şairi Rəsul Rza yaradıcılığına həsr olunmuş “Məhəbbətə açılan könül” kitabı çapdan çıxmışdır. |
| **2022** | Qırğızıstandakı Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə Azərbaycanın Xalq şairi Rəsul Rzanın ikicildlik kitabının birinci cildi qırğız dilinə tərcümə olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın müəllifi olduğu kitabın “Ön söz”ünü qırğız dilinə Kanıbek |

| | |
|---|---|
| | Omurzakov, şeirləri isə Mukan Asanaliyev və Bakıt Junusaliyev tərcümə etmişdir;<br><br>Gəncə Dövlət Kukla Teatrında Xalq şairi Rəsul Rzanın “Ana qız” şeirinin motivləri əsasında eyniadlı tamaşa hazırlanıb. |
| **2023** | Rəsul Rzanın "Uzaq ellərin yaxın töhfələri" əsərini Dr. Şəmsəddin Kuzəçi toplayaraq Ankarada kitab halında buraxmışdır. Kitaba professor Qəzənfər Paşayev "Xalq şairi Rəsul Rza, onun "Uzaq ellərin yaxın töhfələri" əsəri və Dr.Şəmsəddin Kuzəçi haqqında düşüncələrim" adlı geniş ön söz yazmışdır. |